**050107 – "İbtidai sinif müəllimliyi" ixtisasının qısa təsviri**

İbtidai sinif müəllimliyi ixtisasında təhsil almağın üstünlüyü ondan ibarətdir ki, ibtidai təhsilin pedaqogikası və metodikası ilə bağlı nəzəri biliklərə və praktik bacarıqlara dərindən yiyələnirsən. İbtidai təhsil ümumorta təhsilin ilkin mərhələsini təşkil edir. İbtidai təhsilin məqsədi kiçik yaşlı uşaqlarda oxu, yazı, hesablama vərdişləri, məntiqi təfəkkür və ümumi savad formalaşdırmaqdan ibarətdir. İbtidai sinif müəllimliyi ixtisası üzrə təhsil proqramını mənimsəyən mütəxəssis kiçik yaşlı uşaqlarla işləməyi və onların yaş psixologiyasının xüsusiyyətlərini öyrənir. Bundan başqa ibtidai sinif müəllimi kiçik yaşlı uşaqlara insan, cəmiyyət və təbiət haqqında, onların qarşılıqlı əlaqələri haqqında ilkin həyati bilik və bacarıqları öyrədir. Bu ixtisas üzrə məzunlar ixtisas biliklərindən əlavə, həm də aşağıdakı bir sıra ümumədəni və peşə kompetensiyalarına (səriştələr) yiyələnirlər:

- Kollektivdə öz həmkarları ilə birlikdə işləməyi, optimal qərarlar qəbul etməyi bacarmaq, idarəetmə metodlarına yiyələnmək;
- Yeni ideyalar irəli sürmək və əsaslandırmaq;
- Mədəniyyətlərarası dialoqa hazır olmaq;
- Problemli şəraitdə təşəbbüskarlıq göstərmək;
- Tənqid və özünütənqidə dözümlülük göstərmək;
- Peşə fəaliyyəti sahəsinə aid olan fənlərin əsas problemlərini bilmək və konkret şəraitdə tətbiq etməyi bacarmaq;
- Şagirdlərin müəyyən qruplarına rəhbərlik etməyi bacarmaq.

Bu ixtisas üzrə bakalvr dərəcəsini almaqla orta ümumtəhsil məktəblərində, müxtəlif tədris mərkəzlərində və hazırlıq kurslarında, liseylərdə, orta ixtisas təhsili müəssisələrində (kolleclər), magistr dərəcəsini almaqla isə həm də universitetlərdə İbtidai təhsilin pedaqogikası və metodikası istiqaməti üzrə müəllim kimi işləyə bilər. Bu ixtisasa yiyələnənlər eyni zamanda ixtisaslı kadrlar olmadığı halda məktəbəqədər təhsil müəssisələrində də işləyə bilərlər. İxtisas üzrə təhsil proqramının normativ mənimsəmə müddəti 4 ildir.